# ARAZBARI

*Əsər 2015-ci ildə yazılıb. Lakin, 2020-ci ildə müəllif tərəfindən yenidən redaktə olunub. Əsər "Üzeyir ömrü" filmindən ilhamlanılaraq yazılıb və dahi bəstəkarımız Üzeyir bəy Hacıbəylinin işıqlı xatirəsinə həsr olunub.*



*Üzeyir Hacıbəyli, 1906-cı il*

Gənc Üzeyir yorulmayan, əksinə, başqaları üçün təəccüblə ndirici gücü ilə Bakı küçələrini gəzirdi. Tağıyev Teatrına doğru yönələn Üzeyir bəy orada özü kimi gənc və yorulmayan, enerjili bir aktyoru gördü. Aktyor küçənin ortasında belə öz məşqini edəcək gücdə idi və məşqini edirdi. O, birdən yoruldu, yorğunluğunu ruhundan çıxartmaq istəyən bu gənc tamaşalardan birində oxuduğu "Hicaz"ı bir də oxudu. Səsi yatımlı səs idi. Onun səsi ilə "sadəcə Qarabağlılar oxuya bilər" sözünə qarşı idi bu səs və bu məsəlin əksinin sübutu idi.

Üzeyir bəy bu "Hicaz"ı eşitdi və yanıqlı səsə yandı, yaxıldı. Elə bil bu səsi haradasa eşitmişdi. Eyni səsi bir dəfə də eşitmişdi və demişdi: "Bu, mənim axtardığım səsdir, aktyordur!" İndi də pıçıldayaraq dedi:

-Sarabski? Halaldı sənə.

Birdən "Hicaz"ı yana-yana dinləyərkən özündən asılı olmadı və Sarabskiyə müraciət etdi:

-Eşq olsun Sarabskimizə. Bağışlayın, qardaş, sizin oxumağınızı kəsmək istəməzdim. Özümdən asılı deyil. Sizin bu yanıqlı səsinizi əvvəl də eşitmişdim, bağışlayın, adınız yadımdan çıxıb, orada da "Hicaz"ı oxuyurdunuz. Deyəsən, ispan xanəndəsi rolunu oynayırdınız. İndi də eşidirəm və gözümdə bilirsiniz nə canlanır, qardaş? Sizin Məcnun rolunu necə oynayacağınız.

Sarabski Üzeyir bəyin yanına gəldi: -Bağışlayın, lakin, mən sizi tanıya bilmədim.

-Mən gənc bəstəkar Üzeyir bəy Hacıbəyliyəm. Lakin, mən özümə gənc bəstəkar deməzdim, bunu camaat deyir. Əgər, bu operanı qurtara bilsəm, əsl bəstəkar olacağam.

-Hansı operadır ki?

-"Leyli və Məcnun"operasını deyirəm. Bu il başlamışam, çox əntiqə mövzudur, elə deyilmi?

-Bəli, elədir.

-Elədirsə, niyə orada Məcnun rolunu oynamayasınız?

-Mən, Məcnun rolunu...?

-Bəli siz bu rolu Məcnunun özündən də əla oynayarsınız.

Mən bir insanı ki, bəyəndim, demək ki qurtardı getdi. Siz həmin rolu orijinaldan da yaxşı oynayacaqsınız. Biləsiniz ki mən insan sərrafıyam.

-Mən də sizi bəyəndim. Bilirəm ki, bir də nə vaxtsa kimsə opera yazsa, sizdən yaxşı yazanı olmayacaq.

-Onda təklifimi rədd etməzsiniz məncə, eləmi?.

-Oynayaram. Siz operanı bitirin, mən oxuyaram. Onu da bilirəm ki, siz Şərqin şərqiçisi, ilk opera yazanı olacaqsınız. Çünki, Şərqdə heç kəs opera yazmayıb. Yazıbsa da, mənim məlumatım yoxdur.

-İstəyirsiniz, evim yaxındadır, gedək evə, qonağımız olun.

-Yox, yox, yeni əsər var, orada rolum da var, ona hazırlaşmalıyam.

-Hansı əsər?

-Hüseynqulu Sarabskinin, yəni, bəndənizin "Axtaran tapar" əsəri.

Üzeyir bəy güldü: -Mütləq, mütləq mənə də verərsiniz, mən dramları sevirəm. Onda danışdıq, görüşərik, sizi işinizdən etməyim. Sağ olun.

- Şad oldum. Sağ olun.

Üzeyir bəy sevincindən uça-uça növbəti dərgahına tələsdi. Növbəti dərgah təkcə, Azərbaycanın yox, Şərqin mütəfəkkiri, mətbuatımızın banisi Həsən bəy Zərdabinin evi idi. O, Zərdabinin məqalələrini sevə-sevə oxuyardı. Zərdabi onun idealı halına gəlmişdi. Onun tamaşasına azğın qoçular yerinə, belə mütəfəkkirlərin gəlməsi ona xüsusi ilham verirdi. Bir də, belə mütəfəkkirlərin gənc istedadlara dəstək olması çox lazımlı idi. Üzeyir bəy belə işlərdə hələ təzə idi. Dəstək verilməsi onu ilhamlandırır, yorulmaz edir, gücləndirirdi.



*Həsən bəy Zərdabinin dəfni 30 noyabr 1907-ci il*

Üzeyir bəy Zərdabinin evinin qapısını döydü. Qapını Həsən bəyin xanımı Hənifə Məlikova açdı:

-Salam, oğul. Kimsən?

-Mən gənc bəstəkar Üzeyir Hacıbəyliyəm. Başladığım operanı yazıb tamamlaya bilsəm, həqiqətən, gənc bəstəkar olaram. Həsən bəy Zərdabi ilə görüşmək istəyirəm.

Zərdabi nəvazişli səslə dedi:

-Kimdir, xanım?

-Gənc bəstəkardır. Üzeyir bəy Hacıbəyli. Səni görmək istəyir.

-Gəlsin, xoş gəlib, səfa gətirib.

Üzeyir bəy sevinərək həyəcan içərisində Zərdabinin olduğu otağa çatdı.

-Gəlmək olar, Həsən bəy?

-Buyur, oğlum.

Üzeyir bəy bir az ayaq üstə durub evə göz gəzdirdi. Həsən bəy gülümsəyərək dedi: -Əyləş, oğul, əyləş. Nə olub, nə çətinliyin var, nə kömək edim?

-Allaha şükür, bu xurafatçılardan, qoçulardan başqa heç çətinliyim yoxdur.

-Şükür. Amma, bunlar dəhşətdirlər də. Bunlara görə sənin kimi tək-tük olan istedadlı gəncləri zorla qazanırıq, lakin tez də itiririk. Sizə ümidimiz böyükdür. Sən də dahi olarsan, dostların da. İnşəAllah!

-Həsən bəy, mən bir opera yazıram, hələ ki Şərqdə bu janra heç kəs müraciət etməyib. Adı "Leyli və Məcnun"dur. Bu, operadır, lakin, başqa növündəndir. Operada muğamlar səslənəcəyinə görə muğam-operadır.

-Əhsən, oğul! Hələ Şərqdə heç kəs nəinki, muğam-opera, heç opera da yazmayıb.

-Sözümün canı odur ki, bu opera böyük mesenatımız Hacı Zeynalabdin Tağıyevin tikdirdiyi teatrda tamaşaya qoyulacaq.

-Nə vaxt?

-Dəqiq bilmirik, amma, olacaq. İstəyirəm ki, nə vaxtsa olsa, həmin tamaşaya baxasınız. Heç kəs dəstəkləməsə də sizin dəstəyiniz mənə bəs olar. Mənə ilham verərsiniz ki, yaxşı başlayım və yaxşı da davam edim. Zamanı yetəndə də yaxşı bitirim.

-Təbii ki, gələrəm. Evimin qapısından keçən xurafat səslərini dinləyib sıxılmaqdansa, Tağıyev teatrında bir musiqi dinləyim, bu mənə yetər.

-Çox sağ olun, Həsən bəy. Allah sizdən razı olsun.

Üzeyir bəyin bu gün sevincinin həddi-hüdüdü yox idi. O, özünü çox gümrah hiss edirdi, ona görə də işləmək üçün evinə getməli idi. Obu məqsədlə də Həsən bəyin evindən çıxıb sanki uça-uça öz evinə getdi.

Üzeyir bəy haradan biləydi ki, Həsən bəy 28 noyabr 1907-ci ildə haqqın rəhmətinə qovuşacaq. Üzeyir bəyə dayaq olanlardan biri də Həsən bəy idi və Həsən bəyin bu dünyadan köç etməsi ona çox təsir edirdi. İnana bilmirdi. Üzeyir bəyin dəvət etdiyi tamaşa hələ başlamadan o uca mütəfəkkirimiz vəfat etdi. Çox ağrılı bir hadisə idi.

1907-ci ilin 30 noyabrında Həsən bəy dəfn olundu. Üzeyir bəy onun dəfninə mütləq getməli idi. Təkcə, Üzeyir bəy getmədi, Məleykə xanım, Sarabski, Ərəblinski, Cabbarlınski, Ceyhun bəy, Zülfüqar bəy və bütün Azərbaycan gəldi Həsən bəyin dəfninə. Dəfn çox izdihamlı keçirdi. Hər bir dəfn iştirakçısının sinəsi doluydu, hər bir iştirakçının mütəfəkkir barədə acılı-şirinli xatirələri var idi və hamı da danışmaq istəyirdi. Üzeyir bəyin də sinəsi dolu idi. Söz verilərkən o, nitqinə belə başladı:

-İki gün əvvəl bizim cəmiyyətdə bir faciə yaşanıb. Elə bir faciə ki, bu faciəni heç bir müsibətlə müqayisə etmək olmaz bu aləmdə. Bu faciə xalqımızın, mühitimizin faciəsidir, əgər bunu xurafatçılar və qoçular təsdiqləməsə də bu belədir. Mən Həsən bəyi idealım, böyüyüm və ustadım bilirdim, halbuki, Həsən bəy nə müğənniydi, nə də bəstəkar. İndi də Zərdabini böyüyüm bilirəm. Amma çox sarsılmışam dünəndən, bugündən. Onu bir il əvvəl tamaşama dəvət etmişdim. "Leyli Məcnun" tamaşasına. Amma, qismət, bəxt, tale... beləymiş və taleyə görə Həsən bəy tamaşamı izləməməliymiş. Bəxtə bax. O mənim tamaşamda olmaq istəyərkən indi mən onun dəfnindəyəm. Allah rəhmət etsin! Amin!

Dəfndə iştirak edənlər arasında 2 nəfər var də idi. Bu 2 nəfər Həsən bəy Zərdabi ilə çiyin-çiyinə çalışmış və təsadüfdür ki, onlar da Üzeyir bəy kimi Zərdabini idealları bilmişdi. Bu insanlar Üzeyir bəylə indi görüşürdülər və sonralar daha çox görüşəcəkdilər. Üzeyir bəyin onlara, onların da Üzeyir bəyə çox köməklikləri dəyəcəkdi. Bu 2 gənc Məhəmməd Əmin Rəsulzadə və Əlimərdan bəy Topçubaşı idi!

Məhəmməd Əmin Rəsulzadə çıxışında çox yaxşı cümlələr işlətmişdi:" Cəmaəti ayıltmaq, onu dərrakəli etmək üçün nə lazımdır? – maarif, maarif, maarif! Həsən bəy maarifləndirmə üçün çalışırdı. Belə insanlar az olur. İndi Həsən bəy getdi, ondan sonra xalqımız çox çətinliklər bahasına maarriflənəcək."

Üzeyir bəy indi Məhəmməd Əmin Rəsulzadə ilə tanış olmuşdu. Gördüyü andan bilmişdi ki, o, maarifçidir, sinəsində min dastan yatan adamdır. Ona görə də, Rəsulzadə ilə daha yaxın əlaqə qurmaq istəyirdi. Belə insanlar birbirini tanımalı idi ki, Azərbaycan maarifl ənsin, inkişaf etsin.

Dəfn mərasimi bitdikdən sonra Məhəmməd Əmin Üzeyir bəylə görüşdü.

-Salam, Üzeyir bəy. Sizin çıxışınız məni çox təsirləndirdi. Demək, yaşasaydı sizin tamaşanızda tamaşaçı qismində iştirak edəcəkdi. Öylə mi?

-Bəli. Heyif. Maarif ağacından bir budaq düşdü. Bəs siz nə işə baxırsınız, Məhəmməd Əmin bəy?

-Mən türkçü və islamçıyam. İslamçı deyəndə, xurafatı nəzərdə tutmuram, yəni millətini, dinini sevən və xalqımızın müstəqilliqi uğrunda çalışan bir türkəm. Bir də, maarifçiyəm, publisistəm. Türkçülük və indiki vəziyyətimiz barədə məqalələr yazıram. Ən böyük arzum da Azərbaycanı müstəqil etmək, maarifləndirmək, qadınlarımızı hüquqları ilə tanış etmək, bir sözlə Azərbaycanda hürriyət atəşini yandırmaqdır!

-Əla bir arzunuz, amalınız var. Bu bütün maarifçilərin arzusudur. Siz məni çox ruhlandırdınız. Cümhuriyyəti qursaq mənə icazə versəniz himnini yazaram, əgər bunu bacarmasam bir də musiqi yazmayacağam.

-Mütləq, qardaş. Yaman isinişdim, alışdım sizə, elə bil ki sizi çoxda tanıyırmışam.

*(Davamı 7-ci səhifədə)*

# ARAZBARI

*(Əvvəli 6-cı səhifədə)*

Bu vaxt Əlimərdan bəy də onlara yaxınlaşıb dedi:

-Özümü tanıtmamağı qəbahətim kimi qəbul etməyin, mən də Əlimərdan bəy Topçubaşıyam. Mənim də arzum Məhəmməd Əmin bəylə eynidir. Ona görə də, bir-birimizi yaxşı başa düşürük. Sizin arzunuz da eynidir, öylәmi?

-Təbii, elədir.

-Sizinlə əlaqə yaradacağam. Bir də... Topçubaşı əlini cibinə aparıb bir onluq çıxardıb Üzeyir bəyə tərəf uzadaraq-Biletin pulu yadımdan çıxmışdı.

-Ayıb etməyin, əfəndim, sizdən nə pul...?

-Sizə dəstək, həm də maddi dəstək olmaq vacibdir... - Əlimərdan bəy Üzeyir bəyin çiyninə əlini qoydu.

-Sağ olun. Çox məmnun oldum.

-Mən də.

Üzeyir bəy sağollaşıb getdi. Nəyə sevinsin, nəyə kədərlənsin, bilmirdi Üzeyir bəy. O, artıq bilirdi ki, Zərdabi bir daha olmayacaq, lakin, Zərdabinin yolu davam etdiriləcək, bu yolu davam etdirənlər olacaq!

Artıq tarixi gün bu gün idi. Bu gün Azərbaycan opera musiqisi tarixi yazılırdı. Bu gün Şərq musiqisi tarixi yazılırdı. Şərqdə heç kim bunu etməyə cürət və cəsarət etməmişdi. Coşqun ariyalar indiyə kimi Şərqdə heç kəsin qəlbini fəth etməmişdi. Şərqdə ariya oxuyan oldu, lakin, Şərq heç vaxt ariya oxumadı. Şərq hec vaxt özünü belə sübut etmədi. Artıq "1001 gecə" yox, "Leyli və Məcnun" gecəsi günün nəbzi olacaqdı.

Ərəblinski, Üzeyir bəy, Ağdamski, Sarabski, Cabbarlınski və digərləri bilirdilər ki, nə qədər riskli bir iş edirlər. Onlar Şərqin ilk operasını tamaşaya qoyurdular. Şərqdə çoxlu böyük ölkələr var idi. Halbuki, bu operanın yarandığı yer heç də o ölkələr deyildi. Rusiya İmperiyası adı altında gedən kiçik, lakin, hürriyət üçün, maarif üçün çırpınan Azərbaycan və azərbaycan türkləri idi!

Ərəblinski operada iştirak edənlərə bərk-bərk tapşırırdı: -Baxın, həyəcanlanıb etməyin. Nə olsun ki, baxanlar var, baxanlar sizi həyəcanlandıracaq. Elə bilin ki, həyəcan ermənidir, sizsə müsəlman. Siz həyəcanınıza qalib gəlin, onunla rəqabətə girin, mübarizə aparın! Siz Şərqdə heç kəsin cəsarətlənib etmədiyi şeyi edirsiniz! Siz yüzillərlə, hətta minillərlə yaddan çıxmayan bir şey edirsiniz! İndi heç kəs inanmayacaq ki, Şərqdə ilk operanı kiçik bir yerdə yazıblar, zorla parçalanılaraq Rusiya imperiyasına qatılmış Azərbaycanda! Baxın, Rusiyada, onun imperiyasına qatılmış başqa yerdə yox, məhz Azərbaycanda!

Sarabski dedi: -Yəqin ki, Ağdamski dözər. Əvvəlki "Leyli" kimi olmaz.

Ağdamski: -Yox əşi, mən dözərəm. Həm də, bu bir ilksə və mən bu ilki edirəmsə, deməli, bu, mənim üçün bəzmi-rahət olar.

Sarabski: -Artıq hamı gözləyir. Hazırıqsa, başlayaq.

Ərəblinski "Bismillah" dedi və Sarabski ilə Ağdamski səhnəyə çıxdılar. Hamı onlara baxırdı. Zərdabinin yerində onun ömür-gün yoldaşı və oğlu əyləşmişdi. Mütəfəkkirsevərlər az olsalar da, orada idilər. Rəsulzadə və Topçubaşı da, bütün mütəfəkkirlər də bu tarixi ana şahidlik etmək üçün gəlmişdilər.

Tamaşa başlayandan bir neçə dəqiqə sonra artıq aktyorlar həyəcanlanmırdılar, əksinə, tamaşaçılar bu operanın axırının necə olacağını təxmin edib həyəcanlanırdılar. Heç kəsin gözü yaşsız deyildi. Çünki, Sarabskinin səsi də, bu operanın məzmunu da yanıqlı idi.

Sarabski elə oxuyurdu ki, artıq harada olduğunu unutmuşdu. O, elə bil əsl Məcnun idi. Tamaşaçılar da harada olduqlarını unudurdular. Sarabski bu musiqini ifa edərkən az qalırdı yansın-yaxılsın, ağlasın:

-Sındırdı çərx zülm ilə balu pərim, haray!
Döndərdi tez xəzanə fələk güllərim, haray!
Ey ruzigar, nə eyləmişəm bilməm sənə,
Ümmanə döndü qan ilə çeşmü tərim, haray!

Bu səhnədən sonra hamı əl çaldı. Hətta, musiqiçilər belə əl çaldılar. Üzeyir bəy belə bu operanı özünün yazdığını bir anlıq unutmuşdu. Gözünün yaşını sildi və qışqırdı:

-Eşq olsun teatroya! Eşq olsun mədəniyyətə, eşq olsun maariflənməyə!

Sürəkli alqışlar kəsmək bilmirdi. Hamının qulağı gurultulu alqışdan elə bil tutulmuşdu. Teatr salonu təlatümlənmişdi, dəniz kimi çalxalanırdı. Artıq burada bir yenilik baş vermişdi. Dünya musiqi tarixinin yeniliyi! Dünyanın ilk muğam-operası "Leyli və Məcnun" gündəmdə taxtını hazır etmişdi!

Tamaşa bitdi. Üzeyir bəy və Ağdamski kövrəlmişdi. Sarabski yenə araya gülüş qatmaqla eynələrini açmaq istəyirdi: -Nə olub, niyə ağlayırsınız? Olmaya, Məcnunun halvası acıdır?

Bu sözdən hamı qəhqəhə ilə gülməyə başladı. Üzeyir bəy dedi:

-Sarabski, Allah canını saxlasın, o necə oynamaqdı? Camaatın göz yaşı Göygöl olmuşdu. Sən hamıya lazımsan, lazım! Sən bu millətə lazımsan! Səni sıxışdırmalarına imkan verməyəcəyəm! Səni heç bir qoçunun əlinə buraxmayacağam!



ОПЕРА НА МУСУЛЬМАНСКОМЪ ЯЗЫКѢ.

ТЕАТРЪ Г. З. А. ТАГІЕВА.

Въ субботу, 12-го января 1908 года

Оперными артистами театральной секціи О-ва „НИДЖАТЪ"

подъ наблюденіемъ авторовъ и при участіи любителей представлено будетъ первый разъ на мусульманской сценѣ ОПЕРА

ЛЕЙЛИ И МЕДЖНУНЪ

въ 5 дѣйств. и 6 картинахъ, передѣланная изъ поэмы ФИЗУЛИ и переложенная на музыку братьями У. и Дж. Гаджибековыми.

Восточный оркестръ подъ управленіемъ Курбана. При новыхъ обстановкахъ и новыхъ костюмахъ, сшитыхъ спеціально для этой пьесы.

Для дамъ-мусульманокъ имѣются закрытыя ложи. | Цѣны мѣстамъ бенефисн.

Начало ровно въ 8½ часовъ вечера.

Билеты заблаговременно продаются въ читальнѣ О-ва „Ниджатъ", а въ день спектакля отъ 10 до 2 и отъ 5 час. до окончанія спектакля.

АНОНСЪ: Въ понедѣльникъ, 14 января пред. будетъ „ГЯВЭ".

Общій расп. А. Вели. Режиссеръ Арабанинскій.

Въ субботу, 12 января 1908 г.,

въ залахъ Бакинскаго Общественнаго Собранія

состоится

*12 yanvar 1908-ci il.*

-Bəs sən niyə kövrəlmisən, Leylican? Olmaya dirilmisən heç kəs səni tanımır?

Hamı gülməkdən bir az əvvəlki göz yaşlarını unutmuşdu, Ağdamski söz demək istəyirdi ki, Sarabski özü davam etdi: -Dayan görüm, mən bilirəm niyə kövrəlirsən. Qorxursan ki, sevgilin səni görər, gülünü çırpar başına, sən də qalarsan subay, gələrsən teatra, hə?

Ağdamski gülərək dedi: -Sən komediyaçı olmalısan, bildin, ə? Qoy adam kimi kövrəlim də.

-Bəsdirin görək. Neçə il keçəcək, hələ də bu gün yadda qalacaq. Günün ləzzətini hiss edin. Ağlamağın nə xeyri var?

Teatr işçisi qapını açıb dedi: -Uşaqlar, Məhəmməd Əmin bəy gəlir!

Üzeyir bəy: -Gəlsin, xoş gəlib, səfa gətirib qardaşımız.

Rəsulzadə gəldi və qollarını açaraq Üzeyir bəyi qucaqladı.

- Çox sağol, qardaş. Mən heç vaxt bu qədər təsirlənməmişdim. Bu qədər əla, bu qədər yaxşı opera izləməmişdim. Mahnıları dilimin əzbəri olub. Bu, təkcə Azərbaycan mədəniyyəti deyil, Şərq mədəniyyəti, Dünya mədəniyyətidir. Məcnunu necə tapdığınızı bildim, bəs Leylini necə tapdınız? Leyli haradadır? O Azərbaycan qadınının əlindən öpmək istəyirəm.

Bu vaxt Ağdamski gülümsəyərək Rəsulzadənin yanına gəldi: -Leyli mən idim, Məhəmməd Əmin bəy.

Rəsulzadə heyrətləndi: - Heyrət! Siz çox cəsarətli adamlarsınız! Qardaşım, sən qadın olsaydın, sənin yalnız əlindən öpərdim, yaxşı ki qardaşsan, səni qucaqlayıb öpmək istəyirəm!

Rəsulzadə Üzeyir bəyi və Ağdamskini qucaqladı və dedi: -Yalnız Azərbaycanın maarifçiliyi üçün!

1918-ci il,31 mart,İslamiyyə oteli.

Məleykə xanım kitab oxuyur, Üzeyir bəy isə pianoda mahnı ifa edirdi. Amma tüfəng səsi, insanların harayı, erməni dilində sanki heyvanın çərənləndiyi sözlər, səslər imkan vermirdi ki, pianoda çalınan eşidilsin. Üzeyir bəy gərginləşib pianonun düyməsinə bərk vuranda həyəcan və tüfəng səsləri daha da artırdı. Üzeyir bəy hərarətlənmiş, tərləmişdi. Piano sanki, əllərində uçub dağılırdı. Üzeyir bəy daha dözə bilmirdi. İstəyirdi mahnını tez bitirsin. Nəhayət, mahnı bitdi və Üzeyir bəy hirsindən pianonun qapağını möhkəm çırpdı.

Məleykə xanım qışqırdı: -Aman Allah, Üzeyir, mən çox qorxuram. Tez getməliyik.

-Alçaqlar! Yenə vəhşətdən qaçacağıq! Tez, Məleykə, cəld olaq!

Qapını kimsə tez-tez möhkəm döydü. Məleykə xanım həyəcanlandı. Üzeyir bəy qapını açdı. Otel işçisi idi.

-Tez, Üzeyir bəy, qaçın, canınızı qurtarın, siz gedin, arxanızca əşyaları gətirərəm.

-Yaxşı.

Üzeyir bəy və Məleykə xanım tez qaçdılar. Otel işçisi əşyaları yığıb onlara verirdi ki, qatil gülləsinə tuş gəldi. Onlar tez qaçmaq istəyirdilər ki, otel işçisinin qatili onlara yaxınlaşdı.Onun işi ancaq qəhqəhə çəkib gülmək və qarşısındakının çiyninə vurmaqdan ibarət idi.

-Ara Uzeyir bek, isel yekmer operu "Asli Karem"? (tərcüməsi-Ayə, Üzeyir bəy, bizim operamız "Əsli və Kərəm"i dinləmisən?)

Üzeyir bəy dedi: -Dəyərsiz dilinizdən tək bir söz eşitmək istəmirəm. Şərəfli dilimizdə danışın, bəlkə, şərəf yiyəsi oldunuz.

-Ara, mən ki sənlə pis danışmıram.

-Hələ ki, belədi.

-Daha zarafatım yoxdur, ara, "Leyli Məcnun"una aid bütün yazılarını və şəkillərini mənə verirsən, yoxsa birinci arvadını, sonra da səni öldürəcəyəm.- deyə qatil silahı Üzeyir bəyin başına dirədi.

-Narahat olmayın, erməni bəy, sizə istədiyinizi verəcəyəm... – Üzeyir bəy gülərək dedi. Bir neçə dəqiqədən sonra çemaodanı açırdı ki, cəldliklə silahı erməninin əlindən alıb onun başına dirədi və cibindən bir silah da çıxartdı. – Elə bildin, verəcəyəm, səfil?! Sən məni özün kimi bilmə. Mən heç kəsin halal haqqını oğurlamıram. Elə bilirdin, Şərq operası "Leyli və Məcnun"u sizin kimi oğrulara verəcəkdim? Sən bizim milləti bu qədər qorxaq bilməməliydin, oğru erməni. Mənim övladım yoxdur, belə ki, bu not yazıları və bu şəkillər mənim övladlarımdır. Bunu bil, səfil. Bir də qarşıma çıxma.

Qatil məyusluqla dedi:

-Ara, silahları mənə ver, sənə heç nə etmərəm. Qoy məni silahsız görməsinlər.

Üzeyir bəy:

-Get daxmanda yat, avara! Ayaq basdığın yerlər küllərindən doğacaq! Onu nə sən fikrindən daşındıra bilərsən, nə də sahibin!

Biz Azərbaycan türkləri yaman günün yarağını əlimizdən buraxmarıq, səfil! İndi isə rədd ol!

Boş qalmış oteldə bu söz əks səda verirdi. Üzeyir bəy artıq əsl əsgər idi. Yaman günün yarağını cibində gəzdirib Ərəblinskinin evinə gedirdi.

Ərəblinskinin evində Sarabski, Ağdamski və Rza Darablı var idi. Onlar yeni əsərlər haqqında məsləhətləşirdilər ki atəş səslərini eşitdilər və dinməzcə dayandılar.

Üzeyir bəy qapını döyməyə başladı. İçəridəkilər çox təlaşlandılar. Ərəblinski deyirdi:

-Ya Allah, İnşəAllah erməni olmaz!

Qapı açıldı və Üzeyir bəy içəri girdi. Ərəblinski dedi:

-Ay kişi, lap qorxutdun ki bizi!

-Siz "Leyli-Məcnun" oynayanda qorxmurdunuz, indi erməni dığalarından qorxursunuz?

Darablı dedi:.

-Ey aslan ürəyi yemiş böyük sənətkar, sən necə bu vəhşilərin əlindən qurtuldun? Heç burnun da qanamayıb.

Üzeyir bəy:

-Mən qorxaq deyiləm, Rza. Qatilə həddini bildirə bilirəm. Onun dilini bilməsəm də bunu etməyə cəsarətim və gücüm yetər.

Ərəblinski:

-Ya Rəb, niyə belə oldu hər şey? Axı, necə "Əsli və Kərəm" oynayacayıq biz? Birtəhər burnumuz qanaya-qanaya bu qatillərin əllərindən çıxarıq, bəs bizim tamaşamıza kim gələcək? O boyda afişalar asmışıq. Hamısı suya düşdü. Lənətə gəl, ay erməni!

***(Davamı var)***



***Sevindik NƏSİBOĞLU***